# ƏTRAF MÜHİTİN VƏ EKOSİSTEMLƏRİN PATOGEN MIKROORQANIZMLƏRDƏN QORUNMASI YOLLARI

**Qasımova V.X.**

*Bakı Dövlət Universtiteti*
*vafahal@hotmail.com*

Canlı orqanizmlərin patogen infeksiyalara qarşi müdafiəsi insan həyatının qorunması və uzadılması üçün mühüm və iqtisadi əhəmiyyət kəsb edən problemlərdəndir. Torpaq örtüyünun vəziyyəti ekoloji problemlərlə sıx əlaqədardır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamına əsasən 2010-cı il Ekologiya ili elan olunmuşdur və bundan sonrakı illər məhz ekoloji problemlərin həlli ilə baglıdır. Ətraf mühitin və ekosistemlərin təmizlənməsi və qorunması patogen mikroorqanizmlərə qarşı preparatların hazırlanması ilə bağlıdır. Mühüm məsələlərdən biri, canlı orqanizmlərin patogen infeksiyalardan müdafiəsi üçün yeni nəsil təhlükəsiz, ekoloji təmiz, iqtisadi cəhətdən səmərəli metodların yaradılması və mövcud patogen infeksiyalara qarşı effektiv təsir göstərən bioloji aktiv dərman preparatlarının yaradılmasıdır. Ətraf mühitin çirklənməsi insan fəaliyyətinə və bitkilərin məhsuldarlığına mənfi təsir göstərir. Bitkilərdə mövcud olan infeksion xəstəliklərin təqribən yarısı virus təbiətlidir. Bunu nəzərə alaraq, ekoloji problemlərin həlli üçün torpaq mikroorqanizmlərinin mühüm rol oynadığı yeni metodların axtarılmasına ehtiyac var.

Bioloji aktiv maddələr əldə etmək və patogen infeksiyaların qarşısını almaq məqsədilə torpaq aktinomisetləri tərəfindən sintez olunan antibiotik maddələrin istifadəsi məqsədəuyğun hesab olunur. Dərman preparatlarının hazırlanması və istehsalı üçün yeni biotexnoloji üsullar istifadə olunur. Patogen mikroorqanizmlərə qarşı spesifik təsirə malik olan antibiotiklərin istifadəsi ekosistem-lərin təmizliyinin saxlanılmasında əsas yanaşmalardan biridir. Patogen mikroorqanizmlərə qarşı effektiv təsir göstərən dərman prepaparatlarının hazırlanması üçün membranaktiv antibiotik birləşmələrdən istifadə etməklə molekulyar səviyyədə tədqiqatların aparılması məqsədəuygun hesab edilir. Müasir biotexnoloji metodların köməyi ilə mikroorqanizmlərdən yüksək membran aktivliyi ilə seçilən və patogen infeksiyaların böyümə və inkişafına seçici təsir etmək qabiliyyətinə malik olan molekulyar antibiotiklər almaq mümkündür. Bu üsulla biotexnoloji metodlardan istifadə edərək torpaq aktinomisentləri tərəfindən sintez olunan yeni sinif polien makrolid antibiotiklər alınmışdır. Bu istiqamətdə aparılan tədqiqatlar daha effektiv antibiotiklərin seçilməsi, bunların əsasında yeni membranaktiv birləşmələrin aşkar edilməsi və ekoloji problemlərin həllində ətraf mühitin patogen infeksiyalardan qorunmasında istifadəsi üçün əhəmiyyətlidir.